“525-ci qəzet” – 30

# Alimlərin sevimli qəzeti

**Müstəqilliyin ilk illərində yeni demokratik mətbuatın qaranquşlarından olmuş “525-ci qəzet”in ilk sayının işıq üzü görməsindən 30 il keçir. Bu münasibətlə bu gün Azərbaycan Milli Elmlər Akademiyasında “Müstəqillik dövrünün müstəqil mətbuatı: “525-ci qəzet” mövzusunda konfrans təşkil olunub.**

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun iclas salonunda keçirilən tədbirin gündəliyində Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin təbrik sözü, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlinin “Jurnalistikada məktəb yaratmış qəzet: “525-ci qəzet” mövzusunda məruzəsi nəzərdə tutulub.

Yubiley toplantısında AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanovun, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Könül Bünyadzadənin, Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Öməroğlunun, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyat Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Nurbay Cabbarovun və Mətbuat Şurasının sədri, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcidin çıxışları da olacaq.

Ölkənin populyar və nüfuzlu müstəqil nəşri olan “525-ci qəzet”in kollektivini səmimi qəlbdən təbrik edir, həmkarlarımıza daha yüksək yaradıcılıq uğurları arzulayırıq.




**“Xalq qəzeti”**